# Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində məcburi köçkün düşmüş insanların psixoloji vəziyyəti

**Məlahət Rövşən qızı Yusifzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** melahet.mehdiyeva96.mehdiyeva@gmail.com

**Rəyçilər:** psixol.ü.e.d., prof. E.B. Bəylərov,
psixol.ü.f.d., dos. Ü.Ə. Əfəndiyeva

**Açar sözlər:** postravmatik, psixoloji, stress, psixoloji yardım, müharibə, Qarabağ, qaçqın, itki, cəmiyyət, sosial

**Ключевые слова:** посттравматический, психологический, стресс, психологическая помощь, война, Карабах, беженец, потеря, общество, социальный

**Key words:** post-traumatic, psychological, stress, psychological help, war, Karabakh, refugee, loss, society, social

Ermənistan-Azərbaycan - Dağlıq Qarabağ münasqişəsi nəticəsində Azərbaycana 1 milyona yaxın məcburi köçkün, qaçqın və "qaçqın" statusu almaq istəyən müharibədən zərər çəkmiş insanlar gəlmişlər. Hazırkı dövrümüzdə II Qarabağ müharibəsindəki qələbəmiz bütün Azərbaycan üçün unudulmaz şanlı bir zəfər olmaqla yanaşı o torpaqlardan didərgin düşmüş insanlar üçün bu yeni bir həyat deməkdir. Bu zəfər onların psixoloji vəziyyətlərində, həyatlarında çox şeyi dəyişdi və dəyişəcək. Ancaq bu o demək deyildir ki, onların yaşadıqları psixoloji travmalar, digər çətinliklər unudulacaq. Onların bu günə qədər və hələ də davam edən bəzi psixoloji vəziyyətlərini öz məqaləmdə təhlil etməyə çalışmışam.

Məcburi köçkün düşmüş insanlara nisbətən sosial-psixoloji proqramların köməkliyi ilə dəstək göstərilmiş olsa da, ancaq bu onların psixoloji vəziyyətlərinin tam normallaşması anlamına gəlmir. Qaçqın və məcburi köçkünlərdə müxtəlif formada problemlərə rast gəlmək olur: maddi, mənəvi, sosial, ailəvi, şəxsiyyət və s. Onların ailələri həyatı yenidən başlamaq-yaşadıqları məkanı, sosial statuslarını, maddi-mənəvi şəraitlərini, ünsiyyət əhatələrini və s. dəyişmək məcburiyyətində qaldılar. Bu insanlar öz yaşadıqları şəraiti, şəxsi mülklərini, həyat şəraitlərin, ünsiyyət əhatələrini dəyişdilər. Düşərgələrdə çətinliklə yaşamaq məcburiyyətində qalan qaçqın və məcburi köçkünlər yeni mikrovəziyyətə düşərək "mikromədəni şok" yaşadılar və onlara köçürüldükləri şəraitdə "yad" kimi münasibət bəsləyərək, cəmiyyətdən izolə edərək "fərqli" "başqa növ" insan kimi baxılmağı onların psixoloji vəziyyətlərini daha da çox ağırlaşdıraraq çətin durumlara salırdı. Real həyati situasiyanın çətinlikləri, yaşanan stresslər müxtəlif psixoloji dezadaptasiya və psixoloji problemlərə səbəb olurdu. Köçürülməyə məcbur olmaq özü çox çətin stressli situasiyadır. Situasiyanın məcburi stresogenliyi aşağıdakı psixoloji qanunlarla müəyyən olunur:

1. Müharibə şəraiti, yaranan konfliktlər, ölüm təhlükəsi, yaxınlarının itirilməsi ilə əlaqəli olaraq yaranan travmatik yaşantılar.
2. Keçmişdə sahib olduqlarının itirilməsi və nələrinsə yenidən qurulmasının məcburluğu ilə əlaqəli olaraq yaranan stressli yaşantılar.
3. Yaşayış məskəninin dəyişilməsi mikromədəni mühitin, dəyərlərin, yaşayış qanunlarının dəyişilməsinə gətirib çıxarır.
4. Ailə və yaxınları ilə müvəqqəti ayrılmaq məcburiyyətində qalmaq.

5. Sosial statusun, işin, peşənin itirilməsi.

Məcburi köçkünlərin psixoloji vəziyyəti gələcəyə qarşı inamsızlıq, çoxlu real problemlərin qarşısında "başını itirmək", öz yaxınlarına görə yaşanan həyəcan, cəmiyyətdə yaşadığı frustrasiyalar, aqressivlik, depressiya, apatiya və s. ilə müəyyən olunur. Məcburi köçkünlərin ailəsi tez-tez fiziki və emosional gərginliklə rastlaşır, özlərinə olan inamı azalır və özlərini qorumasız hiss edirlər. Onların daxili həyəcan vəziyyəti sinir — psixiki partlayışla, ailədaxili konfliktlərlə yaxud da onları əhatə edən xarici mühitə qarşı olan aqressiya ilə özünü büruzə verir. Bu insanlarda böyük psixoloji boşluq yaranır, çünki, onlar keçmişdə əllərində olan bütün varını itirmişlər və gələcək perspektivləri müəyyən deyil. Şəxsiyyət reaksiyaları arasında daha çox yüksək həyəcana, psixoloji gərginliyə, nevrotik reaksiyalara, depressiya və psixozlara rast gəlinir. Bu psixoloji problemlərə səbəb qismində sosial əlaqələrin pozulması, qruplararası konflikt, yeni mühitə qarşı iştirak edir. Məcburi köçkünlərin psixoloji vəziyyətini anlamaq üçün təməl daşı qismində olan aqressiya, passivllik və izolə olunmaq sosial identikliyin böhranı – şəxsiyyətin öz mühitində, yaşayış və ünsiyyət sistemində özü haqqındakı təsəvvürlərinin anidən transformasiyası çıxış edir. Demək olar ki, bizim bütün cəmiyyətimiz bu sosial identikliyin böhranından keçdi. Lakin bu proses xüsusi olaraq məcburi köçkünlərə təsir etdi. Məcburi köçkünlərin bəzi qismində bu sosial identiklik o qədər güclü transformasiya etdi ki, hətta özünün qrup və cəmiyyətə şəxsiyyət səviyyəsində Məsələn: Azərbaycanda məcburi köçkünlərin psixoloji tədqiqatı zamanı onların bəzilərində özünüdərketmə strukturunun tamamilə pozulması müşahidə olundu. Onlar bizi cəmiyyətə bağlayan və yönləndirən önəmli xüsusiyyətlərdən biri olan cəmiyyətin əsas kateqoriyasındakı "mənalılıqlarını" (sosial status, professional xüsusiyyət, mülkiyyət, ailədə rol, cinsi, yaş məxsusiyyətləri və s) itirdilər. Eyni zamanda məcburi köçkünlər üçün vətəndaşlıq və milli məxsusiyyət anlayışları da öz əhəmiyyətini itirdi. Bu identiklik quruluşunun kordinal transformasiyası – özünü cəmiyyətdə əsas həyati münasibətlərin sərhəddinə atılmış hesab etmək adlanır.

Yeni etno mədəni şəraitə düşmək onlarda mədəni şok adlanan bir vəziyyətə gətirib çıxardı. İnsanın əvvəlki-hazırda köçməyə məcbur olduğu mühitin norma və dəyərlərinə əməl etməsi situasiyanı daha da pisləşdirir. İnsan əvvəl nə qədər özünün alışdığı mədəni modelinə çox bağlı olursa, onun üçün yeni mühitə uyğunlaşmaq bir o qədər çətinləşir. Nəzərə almaq lazımdır ki, burada əsas rolu tək etnik deyil, həm də mədəni fərqliliklər oynayır.

Digər aspektdən nəzərə alası olsaq, başqa sərhədlər də mövcuddur. Məsələn:bu insanlarda öz millətinə qarşı münasibət pisləşir, öz millətinin mədəniyyətini inkar edir, etnik mənsubiyyətə qarşı etinasız yanaşır bu insanlarda eyni zamanda, uğurlu adaptasiya prosesi getmir. Bu o deməkdir ki, insan öz simasını itirməməli–öz öyrəşdiyi həyat şəraitindən, davranış mühitindən izolə olunmamalıdır. Artıq bu proseslərdən keçən formalaşmış şəxsiyyətlərdə psixoloji xüsusiyyətlərin güclü formada yenidənqurulması gedir. Qaçqın və məcburi köçkünlərdə özünüdərketmə transformasiyası onlarda başqa qruplara qarşı olan tolerantlılığı (davamlılığı) yetərli dərəcədə azaldır, yeni şəraitə uyğunlaşmanı itirir. Belə situasiyalarda onlarla psixoloq–konsultantların və psixiatrların köməkliyi ilə mədəni adaptasiya prosesi aparılmalıdır.

Bu və digər psixoloji problemləri həll etmək üçün həyata keçirilən psixoloji yardım qaçqın və məcburi köçkünlərə tətbiq olunan psixoloji konsultasiyaların əsas aqrumentidir. Mənim fikrimcə, bu xidmətlər bayağı quruluşda olmamalı, sosial xidmətlər göstərə biləcək müxtəlif cəmiyyət təşkilatları ilə kompleks şəkildə, xüsusi reabilitasiya mərkəzlərinin struktur komponenti qismində aparılmalıdır.

**Məqalənin aktuallığı.** Yaşadığımız cəmiyyətdə 1 milyona yaxın məcburi köçkün yaşayır və onlar müxtəlif şəkildə psixoloji təzyiqə məruz qalıblar. Onlar cəmiyyətin ayrılmaz hissəsi-

dir və onun aktiv üzvləridirlər, müəyyən peşələri icra edir, digər insanlarla daim əlaqədədirlər. Tədqiqatda məcburi köçkünlərin psixoloji vəziyyəti təhlil olunmuşdur.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi böyükdür, qaçqın və məcburi köçkünlərin psixoloji vəziyyətlərində yaranan problemlərin səbəbləri geniş şəkildə izah olunmuşdur, eyni zamanda onların cəmiyyətin psixoloji cəhətdən normal vəziyyətə gətirilməsi üçün nümunələr verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqatdan qaçqın və məcburi köçkünlər, müəllimlər, tələbələr, ümumilikdə bütün cəmiyyət yararlana bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentin İşlər İdarəsinin Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı, 2005.
2. Zamanova A, Əliyeva H, Əlixanova G. Psixoloji xidmətin diadası. Bakı, 2012.
3. Cavadov Ə.R, Tağıyva G.B. Eksperimental şəraitlərdə psixoloji xidmət. Bakı, 2006.
4. Posttravmatik stress pozuntusunun diaqnostika və müalicəsi üzrə klinik protokol. Bakı, 2013.
5. Zimmerman M.A.(1984). Taking aim on empowerment research: On the distinction between individual and psychological conceptions. American Journal of Community Psychology.
6. American Psyciatric Association. Diagnostic and Statistical Manual of Mental Disorders. 4th ed. Washington, Dc. 1994.
7. Yehuda R, LeDoux J. Response variation following trauma: a translational neuroscience approach to understanding PTSD. Neuron. 2007

**М.Р. Юсифзаде**

## Психологическая ситуация ВПЛ в армяно-азербайджанской Нагорно-Карабахском конфликте

## Резюме

Статья посвящена анализу психологического состояния ВПЛ и вынужденных переселенцев. Психологическая травма этих людей отражается на всех сторонах их жизни и создает определенные препятствия как для них самих, так и для людей, с которыми они общаются. Поэтому преодоление этой проблемы важно не только для этих людей, но и для общества в целом. Исходя из этого, в статье описываются причины психологических проблем и травм у этих людей, их реакции и реакции окружающих людей. В статье выдвигаются определенные аргументы для решения этой проблемы.

**M.R. Yusifzade**

## Psychological situation of refugees in the Armenian-Azerbaijani - Nagorno-Karabakh conflict

## Summary

The article is devoted to the analysis of the psychological state of refugees and displaced persons. The psychological shocks of these people manifest themselves in all areas of their lives and create certain barriers for both themselves and the people with whom they interact. Therefore, overcoming this problem is important not only for these people, but for society as a whole. Based on this, the article explains the causes of psychological problems and traumas in these people, their reactions and the reactions of others. The article puts forward some arguments to solve this problem.

**Redaksiyaya daxil olub:** 18.04.2022